Xalq qəzeti 2021.- 9 fevral.- S.6.

# Yeni ştammlara yoluxanlarla COVID–19 xəstələrinin müalicəsində fərq yoxdur

**"Hazırda Azərbaycanda koronavirusla bağlı vəziyyət çox yaxşıdır. Həm ölüm sayları, həm də yeni yoluxma halları azalıb. Bu, hökumətin gördüyü tədbirlərin səmərəliliyini, həm də insanların tələb olunan qaydalara riayət etdiyini göstərir. Bunun davamı çox önəmlidir. Məlumdur ki, dünyada koronavirusun yeni mutasiyaları var. Bütün görülən işlər mutasiyalara qarşı da təsirlidir. Ona görə də insanların özlərini qorumağa davam etməsi vacibdir". Bu fikirləri Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı kütləvi informasiya vasitələrinin nümayəndələrinə müsahibə verərkən deyib.**



O, peyvəndlərin təsirləri barədə danışaraq bildirib ki, həmişə peyvəndlərin insanlara tətbiqindən öncə klinik sınaqlar həyata keçirilir. Vaksinin təhlükəsiz olduğu müəyyənləşdirildikdən sonra insanlara tətbiq edilməyə başlanılır. Lakin bu prosesdən sonra monitorinq keçirilməsi çox önəmlidir. Hazırda dünyada COVID – 19 əleyhinə geniş istifadə olunan vaksinlərin monitorinqləri aparılır. Hələ ki, peyvəndlərdən sonra ciddi bir əks-təsirə rast gəlinməyib. Buna baxmayaraq, monitorinqlərin davam etdirilməsi zəruridir. Vaksinasiyadan sonra ölüm hallarının qeydə alınması faktları araşdırılır. Çünki hər gün insanlar müxtəlif səbəblərdən vəfat edirlər. Vaksin vurulan insanlar da fərqli səbəblərdən vəfat edə bilərlər. Onun vaksinlə əlaqəsinin olub-olmamasının araşdırılması çox önəmlidir. Avropada aparılan tədqiqatlarda bu ölümlərin birbaşa peyvəndlərlə əlaqəsi olmadığı müəyyənləşib. Lakin vəziyyəti izləmək vacibdir.

Qeyd edək ki, insanlar COVID xəstəliyini keçirdikdən sonra onlarda bəzi simptomların uzun müddət davam etdiyini bilirik. Lakin bunun xəstəliyin ağırlığına və ya nəticəsinə necə təsir etdiyi məlum deyil. Yeni bir xəstəlik olduğuna görə belə halların da monitorinqi vacibdir. Əgər insanlarda simptomlar keçməzsə, onlar müalicə edən həkimlə əlaqə saxlamalıdırlar. Xəstəliklə mübarizədə hər kəsin diqqət etməli olduğu şeylər eynidir. Ara məsafəsinin qorunması, əl gigiyenası, maska istifadəsi və otaqların tez-tez havalandırılması lazımdır. İnsanların kütləvi toplaşdığı yerlərdə bir xəstə insan varsa belə, yoluxmaların olmaması mümkün deyil. Amma biz həyatımıza qaydalara diqqət edərək davam etmək məcburiyyətindəyik. Mütəxəssislər vətəndaşlara indiyədək riayət etdiyi və Azərbaycanda epidemiyanı nəzarət altına almağa nail olduqları qaydalara əməl etməyi tövsiyə edirlər.

Yanvar ayının 18-dən ölkəmizdə COVID – 19 infeksiyası əleyhinə peyvəndləmə aparılır. Hər bir vaksinasiyada olduğu kimi, yeni növ koronavirus əleyhinə peyvəndləmə zamanı da yan təsirlər müşahidə olunur. Mənfi nüanslar irihəcmli və kiçikhəcmli olaraq bölünür. İrihəcmli təsirlərə aid edilən allergik reaksiyalar, anafilaktik şok indiyədək qeydə alınmayıb. Lakin inyeksiya olan nahiyədə ağrı, ümumi halsızlıq, temperaturun yüksəlməsi kimi kiçikhəcmli reaksiyalar müşahidə olunur. TƏBİB-in infeksion işçi qrupunun üzvü Süleyman Kamilovun sözlərinə görə, peyvəndlərin təsirləri barəsində danışmaq hələ tezdir: "İkinci dozadan minimum iki həftə sonra aparılan vaksinasiya haqqında müəyyən fikir yürütmək olar. Yumşalma tədbirlərinin bir səbəbi də peyvəndin həmin dövrdə effektini müəyyənləşdirməkdir. Bu dövrdə peyvəndlərin yoluxma saylarına təsirinin olması gözlənilir. Fevralın 1-dən də müəyyən yumşalma tədbirləri tətbiq olundu. Məhdudiyyətlərin bir qisminin aradan qaldırılmasından sonra xəstəliyin artma intensivliyinə əsasən qarşıdakı aylarda vaksinlərin effektiv olub - olmaması müəyyən ediləcək".

Ölkəmizdəki hazırkı sanitar - epidemioloji vəziyyətdən danışan S.Kamilov bildirib ki, yoluxma hallarının və aktiv xəstə sayının azalması sevindiricidir. Bu vəziyyəti ölkəmiz keçən ilin yayında da yaşayıb. O zaman karantin rejiminin bir sıra məhdudiyyətləri yumşaldıldı. Vətəndaşlar arxayınlaşdılar və bu da rəqəmlərin pik həddə çatması ilə nəticələndi. Çalışmalıyıq ki, həmin səhv bir daha təkrarlamasın. Çünki yoluxma hallarının və aktiv xəstələrin sayının az olması pandemiyanın bitməsi demək deyil. Vətəndaşlar arxayınlaşmamalı, qoyulan tələblərə, mütəxəssislərin tövsiyələrinə əməl etməlidirlər. Kütləvi toplanma yerlərindən uzaq olmaq, maska taxılması, sosial məsafə prinsiplərinin gözlənilməsi, əl gigiyenasına əməl edilməsi, dezinfeksiyaedici vasitələrdən istifadə edilməsi vacibdir. Sadalanan qaydalara diqqət yetirilərsə və ciddi riayət olunarsa, yoluxma saylarının payız aylarında qeydə alınan pik səviyyəyə çatmasının qarşısını ala bilərik. Çünki risk hər zaman var.

Rusiyalı immunoloq Vladislav Jemçuqov bildirib ki, maska taxılmasına olan qorunma zərurəti yalnız hər bir ölkədə kütləvi vaksinləşmədən sonra aradan qalxa bilər. Onun hesablamasına görə, peyvəndləmə davam edərsə, bu, ancaq 4 aydan sonra mümkün olacaq. Maskanı tamamilə o halda arxayınlıqla çıxarmaq olar ki, yaşadığınız regionda 60 – 70 faiz əhali tam, yəni birinci və ikinci doza vaksinini almış olsun.

Almaniya kansleri Angela Merkel COVID –19-a qarşı peyvəndlə təmin edilmək, peyvəndləmə zamanı yaşanan narahatlıqlar barədə qiymətləndirmələr edib. O, Avropa İttifaqı (Aİ) Komissiyasının videoformatda keçirilən iclasında bu haqda danışıb. Merkel bildirib ki, peyvənd istehsal edən şirkətlərin il ərzində nə qədər vaksin tədarük etmələri əvvəldən bəlli olur. O, hazırda Aİ-də üç şirkətin peyvənd üçün təsdiqləndiyinə diqqət çəkərək qeyd edib ki, digər şirkətlər peyvənd təsdiqini ala bilməsə belə, hökumət bu ilin yayına qədər hər bir vətəndaşa vaksin təqdim edəcək. Merkel uşaqlara vurulmayacağına görə, peyvəndin Almaniyada 73 milyona yaxın insana lazım olduğunu deyib.

Peyvənd prosesinin planlı hala gətirilməsi üçün Almaniyada "Milli Peyvənd Planı" hazırlanacaq. "Peyvəndin təsir etmədiyi, mutasiya etmiş bir növ ortaya çıxarsa, hər şeyə yenidən başlayacağıq", – deyə Merkel bildirib.

"Koronavirusun yeni ştamlarına yoluxan xəstə ilə COVID – 19 xəstələrinin müalicəsində hər hansı fərq yoxdur. Virusun yeni ştamları Uhandan qalan məsələdir. Kembric Universitetinin alimlərinin Britaniyada aşkar etdiyi ştamlar 2020-ci ilin fevral və martında da var idi. Fərq ondadır ki, COVID – 19 infeksiyası qrip viruslarından fərqli olaraq daha sürətli mutasiyaya uğrayır". Bu fikirləri Azərbaycan Tibb Universitetinin Pulmonologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Əlizamin Sadıqov deyib. Professor bildirib ki, virusun müxtəlif modifikasiyaları və mutantları mövcuddur: "Düşünmürəm ki, hazırkı epidemioloji göstəricilər həmin ştammlara təsir edə bilsin. Ümumi toplum içərisində bu mutasiyalar var, amma epidemioloji vəziyyətin kəskinləşməsinə təsir etməyəcək. Uğurlu vaksinasiya olarsa, bu, əhalini 5-6 ştammdan qorumaq qabiliyyətinə malik olacaq. Odur ki, ciddi narahatlığa əsas yoxdur".

Professorun fikirlərindən həm də belə nəticəyə gəlmək olar ki, karantin qaydalarının yumşaldılması müəyyən müddətdən sonra yoluxma sayının artmasına səbəb olacaq. Bu tendensiya gözləniləndir, çünki insanlar bir-biri ilə daha çox kontaktda olur. Vəziyyətin kritik həddə çatmaması üçün vaksinasiya olunmuş və olunmamış insanlar eyni qaydalara əməl etməyə davam etməlidir. Vaksinasiya onun üçün lazımdır ki, virusa yoluxsaq, ağır xəstəliyə düçar olmayaq. Cəmiyyətdə ölüm sayı azalsın, infeksiya, ümumiyyətlə, aradan qalxsın. Yalnız cəmiyyətin 60 – 70 faizi peyvənd olunduqdan sonra epidemiya təhlükəsindən çıxa bilərik.

Statistikaya nəzər salsaq görərik ki, ötən həftə dünyada koronavirus səbəbindən 96 mindən çox insan vəfat edib. Bu, pandemiya başlanandan bəri ən yüksək həftəlik göstəricidir. Bununla bərabər, dalbadal üçüncü həftədir ki, yeni xəstələnənlərin sayı azalır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həftəlik epidemioloji bülleteninə istinadla deyə bilərik ki, ötən həftə təqribən 3,7 milyon nəfərin COVID – 19-a yoluxması aşkar edilib. Bu, əvvəlki həftə ilə müqayisədə 13 faiz azdır. ÜST-nın məlumatına görə, yanvarın 25–31 arası dünyada koronavirus infeksiyası səbəbindən 96 min 364 ölüm faktı qeydə alınıb. Bundan əvvəlki antirekord göstərici yanvarın 18-dən 24-dək qeydə alınmışdı (95 min 991 ölüm faktı). Ötən həftə yeni yoluxanların sayı 3 milyon 686 min 110 nəfər olub. Bu, əvvəlki həftədə qeydə alınmış 4 milyon 104 min 947 ölüm faktı ilə müqayisədə xeyli azdır. Həmin həftə yeni xəstələnənlərin sayının əhəmiyyətli dərəcədə azalması Afrikada (27 faiz) və Avropa regionunda (18 faiz) qeydə alınıb. Bu regionlarda ölüm halları da azalıb (hər iki halda 8 faiz), lakin Qərbi Sakit okean regionunda ölüm hallarının 21 faiz, Şərqi Aralıq dənizi bölgəsində 9 faiz, Qərb yarımkürəsində 4 faiz artması qeydə alınıb.

Yanvarın 25-dən 31-dək olan dövrü əhatə edən yeddi gün ərzində Şimali və Cənubi Amerikada 1,8 milyondan çox insan xəstələnib, 47 mindən çox adam ölüb. Avropada yeni yoluxanların sayı 1,25 milyondan çox, ölüm hallarının sayı 36 mindən çox artıb. Cənub–şərqi Asiyada həkimlər 200 mindən çox yeni yoluxma faktını aşkar ediblər. Bu regionda ölənlərin sayı 3 mindən çox olub.

Həmin həftə ərzində ABŞ-da yoluxanların sayı 1,07 milyondan çox artıb. Bu göstərici üzrə sonrakı yerləri Braziliya (364 mindən çox), Böyük Britaniya (178 mindən çox), Fransa (141 mindən çox), Rusiya (131 mindən çox), İspaniya (109 mindən çox), Meksika (109 mindən çox), Hindistan (91 mindən çox), Kolumbiya (90 mindən çox) və İndoneziya (88 mindən çox) tutur.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***